

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 47 (24.184)

*14 mart 2023-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev Bolqarıstan Prezidenti Rumen Radev ilə videokonfrans formatında görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə videokonfrans formatında görüşüb.

Görüşün videokonfrans formatında keçirilməsinə səbəb Bolqarıstan nümayəndə heyətinin üzvlərində COVID-19 testinin nəticəsinin pozitiv çıxmasıdır.

Bolqarıstan Prezidentini salamlayan Azərbaycan Prezidenti **İlham Əliyev** dedi:

– Xoş gəlmisiniz, cənab Prezident. Sizi Bakıda görmək çox xoşdur. Ümid edirəm ki, Forumdakı iştirakınızdan məmnun olacaqsınız.

Əvvəlcə bu vacib tədbirdə iştirak etmək üçün səfərinizə görə Sizə təşəkkür edirəm. Sizin şəxsi iştirakınız Qlobal Bakı Forumunun səviyyəsini yüksəldir və əlbəttə əminəm ki, Siz bu beynəlxalq tədbirin potensialına mühüm töhfə verəcəksiniz. Həmçinin Sofiyadakı görüşlərimizi də məmnunluqla xatırlayıram – keçən il rəsmi səfərim zamanı və interkonnektorun açılışı mərasimində. O vaxtdan ötən dövrdə işlər uğurla irəliləyir və biz strateji əməkdaşlığımızın çox əməli nəticələrini görürük. Bir daha xoş gəlmisiniz.

Bolqarıstan Prezidenti **Rumen Radev** dedi:

– Çox sağ olun, cənab Prezident. Dəvətiniz və səmimi qonaqpərvərliyiniz üçün Sizə təşəkkür edirəm. Bizim münasibətləri dərinləşdirdiyiniz üçün bir daha Sizə təşəkkür edirəm. Çox şadam ki, bu, təkcə enerji sahəsinə şamil edilmir. Sofiyaya səfəriniz bizim əməkdaşlığımızın digər çox vacib sahələrini inkişaf etdirmək üçün dönüş nöqtəsi idi. Əvvəlcə enerjidən başlayaq. Bildiyiniz kimi, Yunanıstanla Bolqarıstan arasında interkonnektorun işə salındığı ilk gündən hər şey mükəmməl və heç bir problem olmadan işləyir. Biz Azərbaycandan qaz aldığımıza görə məmnunuq. Bilirsiniz ki, biz daha da irəli getməyə hazırıq. Bizim "Həmrəylik Halqəsi" təşəbbüsümüz Sizə məlumdur. Lakin əlbəttə ki, əsas məqam Azərbaycandır. Biz Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın qazötürücü operatorlarının imkan və səylərini birləşdirərək əlavə həcmdə Azərbaycan qazı nəql etməyə hazırıq. Bu andan etibarən qərar Sizindir. Məlumat üçün bildirim ki, fevralın 1-də Prezident Vuçiçlə birlikdə biz Bolqarıstanla Serbiya arasında interkonnektora start verdik. Beləliklə, görə bilərsiniz ki, imkanlar demək olar hər ay artır. Biz şaxələndirməni, təchizatın təhlükəsizliyini təmin edərək bu çox mühüm sahədə strateji tərəfdaş və müttəfiq kimi Sizinlə işləməkdən məmnunuq. Söhbət təkcə bundan getmir. Vədinizə əməl etdiyinizə və Sofiyada SOCAR-ın ofisini açdığınıza görə bir daha təşəkkür edirik. Mən mayda açılış mərasimində iştirak etməyi gözləyirəm. Bu, həqiqətən də, irəliyə doğru çox yaxşı addım olacaq.

***

Görüşdə enerji, nəqliyyat, təbii qaz təchizatı, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlıqla bağlı məsələlər müzakirə edildi.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfə qeyd edilərək Avropada yeni qaz konnektorunun inşası məsələsinə toxunuldu. Ötən ay Bakıda Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasının əhəmiyyəti vurğulanaraq, Azərbaycanın Avropaya yaşıl enerji təchiz edən önəmli ölkəyə çevrildiyi bildirildi.

Söhbət zamanı nəqliyyat sahəsində əməkdaşlıqla bağlı Bolqarıstandan Azərbaycan ərazisindən Orta Asiya ölkələrinə tranzit yüklərin həcminin artırılması məsələləri barədə fikir mübadiləsi aparıldı.

Rumen Radev Azərbaycan Prezidentini ölkəsinə rəsmi səfərə dəvət etdi. Dəvət minnətdarlıqla qəbul olundu.

## Azərbaycan Prezidenti İlham Əliyev Albaniya Prezidenti Bayram Beqay ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə görüşüb.

Albaniya Prezidentini salamlayan Azərbaycan Prezidenti **İlham Əliyev** dedi:

– Salam, bizim ölkəyə səfər etdiyiniz üçün təşəkkür edirəm. Sizi yenidən görməyə çox şadam. Keçən il Tiranadakı görüşümüzü xatırlayıram və qonaqpərvərliyiniz üçün bir daha təşəkkür edirəm. Ölkənizə rəsmi səfərimdən və Sizinlə, Baş nazirlə müzakirələrdən çox məmnun qaldım.

Əməkdaşlığımızı gücləndirmək üçün qəbul etdiyimiz qərarlar, həqiqətən, nümayiş etdirir ki, ölkələrimiz arasında çox yüksək səviyyədə dostluq və qardaşlıq əlaqələri var. X Qlobal Bakı Forumu çərçivəsində keçirilən vacib tədbirdə – atam, Prezident Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi sessiyada iştirak etmək üçün gəldiyinizə görə Sizə təşəkkür edirəm. Çox sağ olun.

Əminəm ki, Bakıda qaldığınız müddətdə yaxşı vaxt keçirəcəksiniz. Faydalı, ikitərəfli əməkdaşlığımızın vacib məqamlarına toxunmaq üçün bu, çox yaxşı fürsətdir.

Albaniya Prezidenti **Bayram Beqay** dedi: – Təşəkkür edirəm, cənab Prezident. Əlamətdar



tədbir olan Bakı Forumunda iştirak etmək üçün Azərbaycana gəlmək, Sizi ziyarət etmək məndə və mənim həyatımda böyük məmnunluq hissi doğurur. Bu, səfər etmək və Sizi görmək üçün əlavə bir fürsətdir. Əlbəttə ki, atanızın irsi əbədi olaraq yazılıb və hesab edirəm ki, Bakı və bütün ölkə üçün həyata keçirdiyiniz işləri hər yerdə görmək olar. Dünən mən şəhərə çıxdım, bir az gəzdim və şəhərin heyrətamizliyinin şahidi oldum.

**Prezident İlham Əliyev:** – Təşəkkür edirəm.

**Prezident Bayram Beqay:** – Əlbəttə, Sizin qeyd etdiyiniz kimi, biz keçən il görüşmüşük və düşünürəm ki, ölkələrimiz dost ölkələrdir. Biz ikitərəfli əməkdaşlığımızı gücləndirmək üçün çalışmalıyıq, xüsusilə iqtisadiyyat və turizm sahələrində. Bizdə Transadriatik boru kəməri var və ölkənin bütün ərazisini qazlaşdırmaq üçün daha çox iş görməliyik.

**Prezident İlham Əliyev:** – Elədir ki, var.

**Prezident Bayram Beqay:** – Xüsusilə indi – enerji məsələsinin çox önəmli olduğu bir dövrdə. Qaz da çox vacibdir. Biz çox şadıq və bəxtimiz gətirib ki, Siz üzərinizə belə bir öhdəlik götürmüsünüz və Sizin dostluğunuzu qazanmışıq.

**Prezident İlham Əliyev:** – Təşəkkür edirəm.

***

Görüşdə Azərbaycan ilə Albaniya arasında dostluq və tərəfdaşlıq münasibətlərinin olduğu vurğulandı, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı və qarşılıqlı dəstəyi yüksək qiymətləndirildi.

Söhbət zamanı enerji sahəsində əməkdaşlıq, iqtisadi-ticari əlaqələrin genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı, Azərbaycanın Albaniyada səfirliyinin yaradılması, həmçinin Albaniyanın Azərbaycanda səfirliyini təsis etməsi ikitərəfli münasibətlərin inkişafı baxımından müsbət addım kimi dəyərləndirildi. Yüksək səviyyəli qarşılıqlı səfərlərin və təmasların bundan sonra da davam etdiriləcəyi bildirildi.

## Azərbaycan Prezidenti İlham Əliyev Xorvatiyanın sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviçi qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Xorvatiyanın sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviçi qəbul edib.

Görüşdə X Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunuldu, bu tədbirdə iştirak edən nüfuzlu qonaqların sayının ilbəil artdığı vurğulandı. Dünya gündəmində duran aktual məsələlərin müzakirəsi baxımından bu beynəlxalq platformanın çox mühüm rol oynadığı bildirildi.

Söhbət zamanı dövlətimizin başçısı ilə Xorvatiyanın sabiq Prezidentinin görüşləri xatırlandı, Azərbaycan-Xorvatiya ikitərəfli münasibətlərinin uğurlu inkişafı qeyd edildi.

## Azərbaycan Prezidenti İlham Əliyev Almaniyaya işgüzar səfər edib

Martın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasına işgüzar səfərə gəlib. Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Berlin şəhərinin Brandenburq "Willy Brandt" aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident İlham Əliyevi rəsmi şəxslər qarşıladılar.

* * *




Martın 13-də Berlində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniyanın aparıcı şirkətlərinin rəhbərləri ilə görüşü olub.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.



Görüşdə iqtisadi sahədə, o cümlədən sənaye, nəqliyyat, enerji, kənd təsərrüfatı, təhsil, texnologiyalar və digər sahələrdə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

## Naxçıvanda Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş könüllü ağacəkmə aksiyası keçirilib





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında 29 sentyabr 2022-ci il tarixdə Sərəncam imzalayıb, 28 noyabr 2022-ci il tarixdə Tədbirlər Planı təsdiq olunub. Tədbirlər Planına əsasən martın 11-də Naxçıvan Muxtar Respublikasında Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş könüllü ağacəkmə aksiyası keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivləri, eyni zamanda ekologiya könüllüləri Duzdağ Fizioterapiya Mərkəzinə gedən yolun sol kənarındakı 2 hektar ərazidə keçirilən ağacəkmə aksiyasında iştirak ediblər. Aksiya zamanı 1500 badam tingi və 600 üzüm kolu əkilib.

Həmin gün muxtar respublikada Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş könüllü ağacəkmə aksiyasında 19 mindən artıq sakin iştirak edib, 40 min meyvə və meşə tingi əkilib.

## Daxili Qoşunların Şərur rayonu ərazisində yerləşən hərbi hissəsində xidmət və yaşayış şəraiti ilə tanışlıq olub





Martın 11-də – Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının yaranmasının 31-ci ildönümü ərəfəsində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Daxili Qoşunların Şərur rayonu ərazisində yerləşən hərbi hissəsində xidmət və yaşayış şəraiti ilə tanış olub.

Səlahiyyətli nümayəndə hərbi hissənin xatirə kitabını yazıb.

Hərbi hissənin balansında olan silah, xüsusi vasitələr, avtomobil və zirehli texnikaların nümayişi olub.

Hərbi hissə ilə tanışlıqdan sonra keçirilən tədbirdə əvvəlcə şəhidlərin və Ulu Öndər Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, polis polkovniki Süleyman Neymətov çıxış edərək Azərbaycan Respublikasının daxili işlər naziri adından şəxsi heyəti Daxili Qoşunların yaranmasının 31-ci ildönümü münasibətilə təbrik edib. Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən həyata keçirilən tədbirlər nəticəsində Daxili Qoşunların keçdiyi böyük təşkilatlanma və inkişaf yolundan, hərbi qulluqçuların İkinci Qarabağ müharibəsində göstərdiyi şücaətdən danışıb. Daxili Qoşunların şəxsi heyətinin ölkə Prezidenti tərəfindən qarşıya qoyulan tapşırıqları hər an yerinə yetirməyə qadir olduğu vurğulanıb.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli şəxsi heyəti "Heydər Əliyev İli" və Daxili Qoşunların yaranmasının 31-ci ildönümü münasibətilə təbrik edərək deyib ki, Daxili Qoşunların yaranması günü məhz Ulu Öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Birinci Qarabağ müharibəsində həm şəhidlərimiz, eyni zamanda qazilərimiz olub. Uzun müddət ərzində səbirlə, təmkinlə yürüdülmüş siyasət məhz ona xidmət edirdi ki, həm ordunun, həm də daxili qoşunların maddi-texniki bazası təkmilləşdirilsin və müasir standartlara uyğunlaşdırılsın. Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevin bu sahəyə diqqəti Azərbaycan Ordusunun və Daxili Qoşunların inkişafına səbəb olub. Bunun nəticəsində Vətən müharibəsində düşmənə layiqli cavab verildi. Əgər lazım olarsa, bundan sonra da rəşadətli övladlar yetişdirmiş bu torpaq və onun oğulları düşmənə yerini göstərəcək.

Sonda hərbi hissənin əsgər yeməkxanasında şəxsi heyətlə birlikdə nahar edilib.

Əsgər Xəyal Məmmədov yaradılan şəraitə görə ölkə Prezidentinə minnətdarlığını bildirib.

**"Şərq qapısı"**

## Elm və Təhsil Nazirliyinin nümayəndə heyəti Naxçıvanda səfərdədir



Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini Fərzəli Qədirovun rəhbərlik etdiyi nümayəndə heyəti təhsil müəssisələrinin fəaliyyəti ilə tanış olmaq məqsədilə Naxçıvan Muxtar Respublikasında səfərdədir.

Səfər çərçivəsində qonaqlar Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseydə muxtar respublikanın təhsil naziri Rəhman Məmmədov ilə görüşüblər.



Daha sonra qonaqlar Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyin, Naxçıvan Şəhər Şahmat Mərkəzinin, STEAM Təlim Tədris Mərkəzinin fəaliyyəti ilə tanış olublar.

Qeyd edək ki, səfər müddətində qonaqlar Naxçıvanın bir sıra ümumtəhsil müəssisələri ilə tanış olacaq.

**Xəbərlər şöbəsi**

## SOCAR prezidentinin müşaviri və nümayəndə heyəti Naxçıvan Dövlət Universitetində

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) prezidentinin müşaviri Aygün Hüseynova və nümayəndə heyəti Naxçıvan Dövlət Universitetində olub.*

Universitetin rektoru, dosent Elbrus İsayev qonaqları salamlayıb, onları universitetdə görməkdən məmnunluq duyduğunu bildirib. Rektor universitetin maddi-texniki bazası, ixtisasları barədə məlumat verib. Vurğulanıb ki, universitetin tələbə kontingentinin 20 faizi Azərbaycanın müxtəlif bölgələrindən, digər 20 faizi isə əcnəbi tələbələrdən ibarətdir. Qeyd olunub ki, ali təhsil ocağında 23 ixtisas üzrə 1700 əcnəbi tələbə təhsil alır. Ali təhsil ocağının dünyanın 150-yə yaxın universiteti ilə beynəlxalq əlaqələri mövcuddur. Rektor universitetin beynəlxalq əməkdaşlığında müəllim-tələbə mübadiləsinin üstün cəhətlərinə toxunub. Muxtar respublikada kadr potensialının ali təhsil ocağını bitirən məzunların hesabına təmin edildiyi vurğulanıb. Texnopark sahəsində ali təhsil ocağında görülən işlərdən danışan rektor innovativ sahədə qazanılan uğurları qeyd edib. Rektor universitetin elmi potensialı haqqında məlumat verərək professor-müəllim heyətinin beynəlxalq təcrübəyə söykənən nüfuzlu elmi nəşrləri barədə danışıb. Ali təhsil müəssisələri arasında ilk dəfə olaraq Naxçıvan Dövlət Universitetində uğurla fəaliyyət göstərən IELTS mərkəzi barədə məlumatları diqqətə çatdıran Elbrus İsayev yaxın zamanlarda SAT imtahan mərkəzinin yaradılacağını da qonaqların diqqətinə çatdırıb.



SOCAR prezidentinin müşaviri Aygün Hüseynova şirkətin qarşıya qoyduğu hədəfləri barədə çıxış edib. Qonaq SOCAR şirkətində “Heydər Əliyev İli” ilə əlaqədar təsdiq olunmuş Tədbirlər Planı çərçivəsində Naxçıvan Dövlət Universitetində də keçirilməsi nəzərdə tutulan görüşlər barədə danışıb. Aygün Hüseynova vurğulayıb ki, universitetdə “Ümummilli Lider Heydər Əliyev və onun neft strategiyası” mövzusunda mühazirələr keçirilməsi nəzərdə tutulub. Görüşdə birgə həyata keçiriləcək tədbirlər barədə razılığa gəlinib, müzakirələr aparılıb.

Sonda qarşılıqlı hədiyyələr təqdim edilib.

**Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi**

## Ümummilli Lider Heydər Əliyevin yüzillik yubileyinə həsr olunmuş tədbirlər olub



Ölkəmizdə Ümummilli Lider Heydər Əliyevin 100 illiyi ilə bağlı bir sıra tədbirlər həyata keçirilir. Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Tədbirlər Planına uyğun olaraq cari il ərzində millət vəkilləri ilə uşaqlarla görüşün keçirilməsi nəzərdə tutulub. 2023-cü il 13 mart tarixdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Babək Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Babək Şəhər 3 saylı Babək-Kəngərli-Naxçıvan Seçki Dairəsində Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ülviyyə Həmzəyevanın “Liderliyə gedən yol” mövzusunda uşaqlarla görüşü keçirilib.

Görüşü giriş sözü ilə Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Səbinə Abbasova açaraq tədbirin mahiyyətindən ətraflı bəhs edib.

Daha sonra Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aytən Məmmədova xatırladıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamına əsasən 2023-cü il ölkəmizdə “Heydər Əliyev İli” elan olunub. Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ölkəmizdə, eləcə də muxtar respublikada yüksək səviyyədə qeyd edilir.

Qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyevin rəhbərlik etdiyi tarix Azərbaycanın inkişaf yoludur, müstəqilliyinin möhkəmlənməsi tarixidir. Ümummilli Lider həmişə uşaqlara xüsusi diqqət yetirib, fəaliyyəti dövründə səhiyyə, mədəniyyət, təhsil ocaqlarının, məktəbdənkənar müəssisələrin şəbəkəsini genişləndirərək uşaqların təhsilinə, dünyagörüşlərinin zənginləşdirilməsinə və sağlamlıqlarının qorunmasına öz təsirini göstərib. Bildirilib ki, əsası Ulu Öndər tərəfindən qoyulmuş dövlət uşaq siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Uşaqların hüquqlarının qorunması, sosial müdafiəsinin gücləndirilməsi, asudə vaxtlarının səmərəli təşkili, istedadlarının üzə çıxarılması ilə bağlı tədbirlər görülür, müvafiq sahə ilə bağlı qanunvericilik bazası təkmilləşdirilir, Dövlət proqramları qəbul olunur, beynəlxalq sənədlər ratifikasiya edilir.

Sədr müavini onu da qeyd edib ki, uşaqlar da onlar üçün yaradılan hərtərəfli şəraitdən yararlanmalı, mükəmməl təhsilə yiyələnməli, bilikli, intellektual gənclər kimi gələcəkdə dövlətimiz, xalqımız üçün layiqli, vətənpərvər şəxsiyyət kimi formalaşıb ölkənin adını daim yüksəklərə qaldırmalıdırlar.

Sonda Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva “Liderliyə gedən yol” mövzusunda uşaqların şəxsi karyera və inkişafla bağlı fikir və təkliflərini dinləyib. Diskussiya şəklində keçirilən tədbirdə uşaqların gələcək planları, onları maraqlandıran digər məsələlərə dair sualları millət vəkili tərəfindən ətraflı cavablandırılıb.

* * *

*Naxçıvan Musiqi Kollecində ingilis dilində Ümummilli Lider “Heydər Əliyev – qəhrəman və milli əfsanə” adlı tədbir keçirilib. Tədbirdə əvvəlcə dahi siyasi xadimin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ardınca Ulu Öndər Heydər Əliyevin həyatından bəhs edən videoçarx nümayiş olunub. Kollecin Ümumtəhsil və humanitar fənlər şöbəsinin müəllimi Alidə İbrahimova iştirakçıları salamlayıb, onlara tədbir barədə məlumat verib.*



Naxçıvan Musiqi Kollecinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Məhəbbət Babayeva Ümummilli Lider Heydər Əliyevin Azərbaycan mədəniyyətinin, incəsənətinin inkişafına verdiyi tarixi töhfələrindən bəhs edib. Diqqətə çatdırılıb ki, Ulu Öndərin Azərbaycana rəhbərliyindən sonra mədəniyyətimiz, milli-mənəvi dəyərlərimiz beynəlxalq aləmdə tanındı və inkişaf yoluna qədəm qoydu. Bu gün diyarımızda mövcud olan incəsənətin, o cümlədən milli-mənəvi və bəşəri dəyərlərin elə bir sahəsi yoxdur ki, görkəmli dövlət xadiminin diqqət və qayğısını hiss etməsin. Musiqimiz, teatrımız, kino sənətimiz, heykəltəraşlıq və rəssamlığımız, xalça sənətimiz bugünkü inkişafında onun dəyərli ideyalarından bəhrələnib.

Diqqətə çatdırılıb ki, dahi rəhbərin atdığı böyük addımlar nəticəsində xalqımız öz milli kimliyinə sahib çıxa bildi, böyük təzyiqlərə, ağır sınaqlara baxmayaraq, tarixi ədalət bərpa olundu. Bu gün 100 illik yubileyini qeyd etdiyimiz Ulu Öndər həm də Azərbaycan teatrının inkişafı və tərəqqisi üçün böyük səylə çalışdı, ölkəmizdə, eləcə də muxtar diyarımızda nümunəvi, mütərəqqi ideyalara malik incəsənət mühiti formalaşdı.

Daha sonra tələbələr tərəfindən ingilis dilində Ümummilli Lider Heydər Əliyevin həyatı, uzaqgörən siyasəti, milli-mənəvi dəyərlərimizə qayğısı və Azərbaycan musiqisinə verdiyi töhfələrlə bağlı məlumatlar qeyd olunub. Sonda dahi rəhbərin dilindən “Azərbaycan” şeirindən bir parça səsləndirilib, “Mən fəxr edirəm ki, Azərbaycanlıyam” tarixi fikri səsləndirilib.

**Xəbərlər şöbəsi**

## “Açıq qapı” günü

Martın 13-də Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi tərəfindən növbəti “Açıq qapı” günü Culfa rayonunda təşkil edilib. Həmin rayonda yerləşən məhkəmənin inzibati binasında nazirliyin əməkdaşlarına müraciət edən vətəndaşlara hüquqi yardım göstərilib, onlara problemlərinin həll olunması



yolları izah edilib, maraqlandıqları suallara aydınlıq gətirilib.

Nazirliyin təsdiq edilmiş Tədbirlər Planının icrası ilə əlaqədar olaraq “Açıq qapı” günlərinin davamlı olaraq keçirilməsi nəzərdə tutulur. Növbəti tədbirin keçiriləcəyi bölgələr barədə media orqanlarında, nazirliyin rəsmi saytında və sosial şəbəkə hesablarında əvvəlcədən məlumat veriləcəkdir.

**Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti**

## Muxtar respublikada ilk dəfə olaraq müavinətin təyin edilməsi və ödənilməsi proaktiv qaydada həyata keçiriləcəkdir

Ölkəmizdə sosial müdafiə sahəsində idarəçiliyin və əhaliyə xidmətlərin elektron infrastrukturunun qurulması, innovativ yenilik olaraq proaktiv xidmətlərin yaradılması və əhatəsinin genişləndirilməsi istiqamətində mühüm işlər görülür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq bu istiqamətdə vətəndaşlara göstərilən xidmətlərin müasir standartlara uyğun qurulması, əhaliyə ödənişlərin proaktiv qaydada həyata keçirilməsində Dövlət Sosial Müdafiə Fondu ilk sıralarda yer alır.



Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu da muxtar respublikada sığorta-pensiya sahəsində vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması üçün müvafiq işlər görür, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin DOST Rəqəmsal İnnovasiyalar Mərkəzinin mütəxəssisləri tərəfindən qurulan, ölkə üzrə Mərkəzləşdirilmiş Elektron İnformasiya Sistemində Pensiya təyinatı altsisteminə yeni pensiya təyinatlarını daxil edir, pensiya məbləğləri elektron qaydada hesablanaraq vətəndaşlara ödənilir. Bu işlərin davamı olaraq DOST Rəqəmsal İnnovasiya Mərkəzi tərəfindən Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fonduna muxtar respublikada sığortaolunanlara ödənilən uşağın anadan olmasına görə birdəfəlik müavinətin ödənilməsinin proaktiv qaydada (vətəndaş müraciəti olmadan) həyata keçirilməsinə funksionallıq verilmişdir. Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən martın 1-dən həyata keçirilən proaktiv təyinat və ödəniş muxtar respublikada sosial sahədə bir ilkdir. Uşağın anadan olmasına görə birdəfəlik müavinət onu almağa hüququ yaranmış vətəndaşların müraciət etmələrinə və sənəd tələb olunmasına ehtiyac olmadan, məmur-vətəndaş təması baş vermədən elektron qaydada təyin ediləcəkdir. Məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən uşağın anadan olmasına görə birdəfəlik müavinətin təyin edilməsinin və ödənilməsinin proaktiv qaydada həyata keçirilməsi sosial sahədə əhaliyə xidmətlərin keyfiyyətinin yüksəlməsinə, vətəndaş məmnunluğuna təminat yaradacaqdır. Proaktiv qaydada müavinətin ödənilməsi yalnız o şəxslərə şamil olunur ki, onların Mərkəzləşdirilmiş Elektron İnformasiya Sistemindəki fərdi hesablarında son 1 il ərzində məcburi dövlət sosial sığortahaqqı qeydə alınsın. Bu xidmət vasitəsilə müavinətin təyin edilməsi və ödənilməsi 1 fevral 2023-cü il tarixdən sonra doğulan uşaqların analarına və ya atalarına şamil ediləcəkdir. Uşağın doğum haqqında şəhadətnaməsi verildikdən sonra Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən Mərkəzi İnformasiya Sisteminə müvafiq məlumatlar ötürüləcək və buna uyğun olaraq Fond tərəfindən müavinətin ödənilməsi həyata keçiriləcəkdir. Təyinat aparıldıqdan sonra müavinətin ödənilməsi və hansı bankdan götürülməsi barədə məlumat ödəniş rəsmiləşdirilmiş şəxsin adına olan telefon nömrəsinə bildiriş göndəriləcəkdir (Vətəndaşın telefon nömrəsi avtomatik olaraq aid qurumların sistemlərindən götürüləcəkdir).

Məlumat üçün bildirək ki, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən qanunvericiliyə uyğun olaraq məcburi dövlət sosial sığortasına cəlb olunan şəxslərə uşağın anadan olmasına görə birdəfəlik müavinət verilir. İşləyən anaya müavinət onun iş yeri üzrə uçotda olduğu Dövlət Sosial Müdafiə Fondunun yerli qurumları tərəfindən ödənilir. Ana işləmədiyi halda və ya hər hansı bir səbəbdən uşağın anası yoxdursa, bu zaman müavinət işləyən ataya verilir. İki və daha çox uşaq anadan olduqda birdəfəlik müavinət uşaqların sayına uyğun olaraq verilir. 2023-cü il yanvarın 1-dən uşağın anadan olmasına görə birdəfəlik müavinətin məbləği hər uşağa görə 500 manat məbləğində müəyyən olunmuşdur.

Qeyd edək ki, DOST Rəqəmsal İnnovasiyalar Mərkəzinin mütəxəssisləri Fond tərəfindən ödənilən digər məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin – əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, hamiləliyə və doğuma görə, uşağa qulluğa görə və dəfn üçün müavinətlərin də elektron qaydada həyata keçirilməsi üçün müvafiq seminarlar keçirir. Yaxın aylarda da Fond tərəfindən ödənilən bütün növ müavinətlər sığortaedənlərin elektron qaydada təqdim etdiyi sənədlər əsasında ödəniləcəkdir. Bu da muxtar respublikada sığortaolunan, sığortaedən və sığortaçı ilə fiziki təması məhdudlaşdıracaq, elektron və proaktiv təyinat prosesinə keçidi təmin edəcəkdir.

**Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti**

*Xalq təqvimi*

# Vətən torpaqlarından halallıq alan barımız-bərəkətimiz tükənməsin

## Yeni həyata uğurlu başlanğıc: Torpaq çərşənbəsi

*İlaxır çərşənbələrin sonuncusu Torpaq çərşənbəsidir. Ayin və ritualların zəngin olduğu bu çərşənbəni xalq olduqca təntənəli şəkildə qeyd etməyi özünə borc bilir. Qeyd edək ki, Naxçıvanda Novruz bayramı ərəfəsində təkcə Torpaq çərşənbəsində deyil, bütün ilaxır çərşənbələr zamanı axşamlar evlərin həyətində tonqallar qalanır. Bu tonqal xalq arasında "cəmrə" adlanan istiliyin simvoludur. Bununla yanaşı, digər ayin və rituallar da icra olunur. Bunlardan ilaxır – Torpaq çərşənbəsi isə mərasim, ayin, etiqad, müxtəlif oyun və şənliklərin daha çox icra olunduğu çərşənbədir.*

Ordubad rayonunda Novruzun ən cox sevilən ərəfəsi – ilaxır çərşənbə, yəni Torpaq çərşənbəsi "Yeddiləvin" adlanır. "Yeddiləvin" zamanı oğlan evi qız evinə şirni apararkən orada şirninin müxtəlif növlərindən olur. Buna görə də şirni növünün çoxluğunu göstərmək məqsədilə ona "yeddilövün", "yeddiləvin" adı vermişlər. "Yeddiləvin" günü süfrələrə cürbəcür nemətlər düzülür. Bu nemətlər, əsasən, 7 adda olmalıdır. Qeyd edək ki, bu adət Azərbaycanın başqa regionlarında da özünü göstərməkdədir. Bəzi yerlərdə "yeddiləvin"ə "yeddisin" də deyirlər. "Yeddiləvin" axşamı tonqallar qalanır. Əhalinin bayram uğurunu – sevincini ifadə edən ən möhtəşəm tonqal dağların uca nöqtəsində yandırılır. Hamının bir-birinə bu barədə ilk sualı belə olur: "Görəsən, Bəlkədə tonqal qalanıbmı?" Bəlkə dağında tonqalın qalanması hamının bayram sevincini birə-beş artırır.



Bayrama hazırlıq hələ fevral ayından, yəni elə ilk çərşənbədən başlayır, ilin son çərşənbəsində, yəni Torpaq çərşənbəsində artıq hər şey nizamlı şəkildə hazır olur. Hər evdə hiss edilən bayram əhvali-ruhiyyəsi Azərbaycanda xalq həyatının müxtəlif məqamlarında özünəməxsus şəkildə əks olunur. Ordubad rayonunda yaşlı nəslin nümayəndələrindən bəzisi ilaxır çərşənbəyə "ilin ən bəd çərşənbəsi", "ilin ən ağır çərşənbəsi" də deyirlər. Belə bir inam var ki, bu gün o qədər şən keçməlidir ki, ilboyu insanlar üçün uğurlu və sevincli olsun.

Torpaq çərşənbəsində Naxçıvan ərazisində icra olunan adətlərdən biri də "Danatma" mərasimidir. Ordubad rayonundan topladığımız folklor örnəklərinə əsasən mərasim ərazinin gənc oğlan və qızları arasında keçirilir. Bir məhəlləyə toplaşan gənclər bir nəfəri seçərək onu yaxınlıqdakı çeşmədən su gətirməyə göndərirlər. Su gətirməyə gedən gəncə göstəriş verilir ki, o, yolboyu susub danışmamalıdır. Əgər danışarsa, gətirdiyi su təmiz hesab edilməz. Qoyulan şərtin icra olunub-olunmadığını yoxlamaq məqsədilə bir nəfəri onu güdmək üçün təyin edirlər. Əgər şərtə düzgün şəkildə əməl olunubsa, həmin su təmiz hesab edilir, mərasimdə iştirak edən hər kəs o sudan həm içir, həm də o sudan növbəti mərasim – "Vəsfi-hal" üçün istifadə edir. Eyni zamanda suyu gətirən gənc də mükafatlandırılır. Vəsfi-hal mərasimi isə ancaq qızlar arasında keçirilir. Təmiz hesab edilən su bir camaya tökülür. Cama mərasim iştirakçısı olan qızların üzük, sırğa və digər bəzək əşyaları da atılır. Mərasimi icra edən başçı bayatı oxuya-oxuya əlini camaya salır, kimin əşyası camdan çıxarsa, ifa olunan bayatı ilə onun gələcək taleyini "müəyyən edirlər".



Naxçıvan inancları arasında ilaxır çərşənbənin ritual özəlliklərini daşıyan nümunələr olduqca çoxdur. İnanc, sınama, ovsun, falabaxma nümunələri isə bu baxımdan daha aktivdir:

Deyərlər ki, ilaxır çərşənbə gecəsi obaşa yaxın çayın suyu dayanar, söyüdlər başını əyib torpağa dəyər. Bu vaxt hər niyyət yerinə yetər.

İlaxır çərşənbədə qızlar əlində güzgü tutarlar. Ayın şəkli düşər güzgüyə. Şəklin içində oğlan əksi görünsə, sevdiyi oğlana gedər, – deyərlər.

İlaxır çərşənbə Torpaq çərşənbəsi olduğundan həmin gün qalanmış ocağın külündən götürüb suya tökərlər. Naxçıvanda yayılmış digər inancda isə deyilir ki, ilaxırda od qalanır. Səhər külü yığıb yağış yağan novdanın altına tökmək lazımdır. Tökəndən sonra arxana baxmadan getməlisən. Ərazidən toplanmış inanc örnəklərinin hər ikisində odla yanaşı, suyun da təmizləyici funksiya daşıması öz əksini tapmaqdadır.

İlaxır çərşənbənin əsas mərasimlərindən biri qulaq falıdır. Qız-gəlinlər bir yerə toplaşar, yavaş-yavaş qonşu evlərinə gedərlər. İçəriyə daxil olar, ürəklərində arzu tutarlar. Arzu tutmazdan öncə ayaq altına qıfıl qoyarlar. Təşrif buyurduqları ev sakinlərinin həyatındə, ya da qapısının ağzında kiminsə durmasından xəbərləri olmaz. Ev əhalisinin dilindən səslənən hər bir sözlə mərasim iştirakçıları ürəklərində tutduğu arzuları yozarlar. Odur ki, ulularımızın tövsiyəsinə görə, ilaxır çərşənbədə evdə xeyir saçan, xeyirli sözlər danışmaq məqbul sayılar.

İlaxır çərşənbələrlə bağlı mərasim və ayinlərin çoxu bu gün də xalq arasında yaşamaqdadır. Bu nümunələr qədim türkün arxaik düşüncəsinin məhsulu olmaqla xalqın əxlaqi, estetik dünyaduyumunu ifadə edərək öz mühafizəkarlığı ilə seçilir. Torpaqla bağlı Naxçıvanda müxtəlif xalq yaradıcılığı nümunələri yaddaşlarda yaşamaqdadır ki, bunlardan sözün magik qüvvəsinə inamı xarakterizə edən alqışlar olduqca fəaldır:

*Torpağın bərəkətli olsun.*
*Torpağı sanı yaşıyasan!*
*Torpaq kimi bar-bəhrəli olasan!*
*Torpağından təzə-təzə nübarlar dadasan!*
*Torpağın rahat olsun!*

Bu nümunələrdən göründüyü kimi, torpaq qədim türklərdə insanı haqq dünyasına qovuşduran varlıq olmaqdan əlavə, insanın xilasına xidmət edən kult kimi də düşünülmüşdür. Torpaq müqəddəsliyi ilə həm insana həyat verər, həm də onu haqq dünyasında ağuşuna alar. Hər mənada torpaq insana hamidir. Muxtar respublikamızın bəzi regionlarında xalq arasında torpağın müqəddəsliyini ifadə edən atalar sözü və məsəllər də yetərincədir:

*Torpaqda itki olmaz, kötüksüz bitki olmaz.*
*Torpaq əkinçinin zəhməti ilə zinətlənər.*
*Torpağa var versən, o da sənə bar verər.*
*Sular hərəkətlidir, torpaq bərəkətli.*
*Torpağı ovuclayan qızıl ovuclar.*
*Torpağın üzü soyuq olar.*
*Torpağa vaxtlı-vaxtında su ver, bəhrəsini gör.*
*Torpaqla oynayan ac qalmaz.*
*Torpaqdan pay olmaz.*

İcra olunan ayin və mərasimlər, eləcə də Torpaq çərşənbəsi ilə əlaqəli yaddaşlarda qorunan inanc-sınama örnəkləri ulu əcdadın erkən təsəvvürlərinin məhsulu kimi dəyərlidir. Bu örnəklər torpağın xalqın həyatındakı vacibliyini, əhəmiyyətini bədii və poetik şəkildə təsdiqləyir.

*Xalqın yaxşıya, xeyrə olan inamını daşıyan alqışına qoşularaq deyirik ki, Vətən sevgisindən güc alaraq sahibləndiyimiz halal torpaqlarımızın barı-bəhrəsi hamımızı sevindirsin! Rəngarəng ritualları ilə ilaxır çərşənbələrin bəzəyi olan Torpaq çərşənbəmiz mübarək olsun!*

**Aytən CƏFƏROVA**
***AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin müdiri, dosent***

## Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən 14 aprel 2023-cü il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manatla) | Əmlakın 15 faiz güzəştli satış qiyməti (manatla) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manatla) |
|---|---|---|---|---|---|
| 1. | 1216 kvadratmetr torpaq sahəsində yerləşən 2 mərtəbəli, 5 otaqlı, 116.0 kvadratmetri yaşayış, 19.25 kvadratmetri köməkçi sahədən ibarət fərdi yaşayış evi | Kəngərli rayonu, Qıvraq qəsəbəsi | 38 000.0 | 32 300.0 | 1900.0 |
| 2. | Ümumi sahəsi 256.6 kvadratmetr, yaşayış sahəsi 221.8 kvadratmetr, köməkçi sahəsi 34.8 kvadratmetr olan fərdi yaşayış evi | Kəngərli rayonu, Qarabağlar kəndi | 28 000.0 | 23 800.0 | 1400.0 |
| 3. | 600 kvadratmetr torpaq sahəsində yerləşən, 1 mərtəbəli, 2 otaqlı, 42.00 kvadratmetri yaşayış, 40.80 kvadratmetri köməkçi sahədən ibarət fərdi yaşayış evi | Naxçıvan şəhəri, Qaraçuq kəndi | 27 000.0 | 22 950.0 | 1350.0 |
| 4. | 370 kvadratmetr torpaq sahəsində yerləşən 1 nömrəli, binanın 2-ci giriş 1-ci mərtəbəsində 48.16 kvadratmetri ümumi, 48.16 kvadratmetri əsas sahədən ibarət qeyri-yaşayış sahəsi (mağaza) | Kəngərli rayonu, Qıvraq qəsəbəsi | 20 000.0 | 17 000.0 | 1000.0 |
| 5. | 3200 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı, 72.50 kvadratmetri yaşayış, 82.45 kvadratmetri köməkçi sahədən ibarət fərdi yaşayış evi | Kəngərli rayonu, Qarabağlar kəndi | 19 000.0 | 16 150.0 | 950.0 |
| 6. | 2373 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 50.31 kvadratmetri yaşayış, 211.61 kvadratmetri köməkçi sahədən ibarət fərdi yaşayış evi | Kəngərli rayonu, Qarabağlar kəndi | 17 000.0 | 14 450.0 | 850.0 |
| 7. | 0.2306 hektar torpaq sahəsində yerləşən 2 mərtəbəli, 5 otaqlı, 111.06 kvadratmetri yaşayış, 85.58 kvadratmetri qeyri-yaşayış, 89.35 kvadratmetri köməkçi sahədən ibarət fərdi yaşayış evi | Kəngərli rayonu, Xok kəndi | 31 000.0 | 26 350.0 | 1550.0 |
| 8. | 0.0601 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 42.00 kvadratmetri yaşayış, 44.00 kvadratmetri köməkçi sahədən ibarət fərdi yaşayış evi | Kəngərli rayonu, Xok kəndi | 10 600.0 | 9 010.0 | 530.0 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 5 faizi məbləğində beh İcra Məmurlarının Xüsusi Vəsaitlər Hesabına 12 aprel 2023-cü il tarixədək ödənilməlidir. Sifarişlər Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakların sənədləri ilə mərkəzdə tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *müvafiq formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 14 aprel 2023-cü il tarixdə saat $11^{00}$-da mərkəzdə keçiriləcəkdir.

***Əlavə məlumatı Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

## Buraxılış imtahanı keçirilib



Martın 12-də Dövlət İmtahan Mərkəzi tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirib. İmtahan respublikanın 32 şəhər və rayonunda təşkil olunub. 50 min 823 şagirdin iştirak etdiyi imtahan keçirilən şəhər və rayonlarda, ümumilikdə, 215 imtahan binası, 3880 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 629 ümumi rəhbər və imtahan rəhbəri, 4832 nəzarətçi-müəllim, 689 buraxılış rejimi əməkdaşı (mühafizə), 215 bina nümayəndəsi ayrılıb.

Naxçıvan Muxtar Respublikasında imtahanlar 14 binada təşkil olunub. 265 zalda keçirilən imtahanda 3160 şagird iştirak edib. İmtahanların idarə olunmasına 40 rəhbər, 318 nəzarətçi cəlb edilib. İmtahan saat $11^{00}$-da başlanıb və 3 saat davam edib.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvan güləşçilərindən uğurlu nəticələr

Bakıda Əməkdar məşqçi Minbudaq Hüseynovun xatirəsinə həsr olunmuş sərbəst güləş üzrə kadetlər arasında respublika turniri keçirilib.



Naxçıvan Güləş Federasiyasından 2 məşqçinin rəhbərliyi ilə 10 idmançımız yarışda iştirak etmək imkanı qazanıb. Onlardan üçü mükafatçılar sırasına düşməyi bacarıb.

Təmsilçilərimizdən Sadiq Kərimov 52 kiloqram, Tuqay Qəhrəmanlı 48 kiloqram, Ələkbər Əsgərov isə 32 kiloqram çəki dərəcəsi üzrə fərqlənib. Hər üç idmançımız öz çəkisində üçüncü yerə layiq görülüb. Bununla da Naxçıvan güləşçiləri turniri 3 bürünc medalla tamamlayıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Babək rayonunun Kültəpə kəndində yaşamış İmamverdiyeva Cahan Abdulla qızının adına olan həyətyanı torpaq sahəsinin sənədi itdiyindən etibarsız sayılır.

***

Hacıyev Rəşid Vəli oğlunun adına Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən verilmiş hərbi bilet və hərbi hissəyə buraxılış vərəqəsi itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**
**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: info@serqqapisi.gov.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Səbuhi Həsənov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1000. Sifariş № 194**